**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ**

**1 NÖMRƏLİ BAKI TİBB KOLLECİ**

# DAXİLİ NİZAM-İNTİZAM QAYDALARI

## 1. ÜMUMİ MÜDDƏALAR

**1.1.** 1 nömrəli Bakı Tibb Kolleci (Bundan sonra Kollec) Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin nəzdində fəaliyyət göstərərək, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 20 sentyabr 2012-ci il tarixdə 2205 saylı nömrə ilə qeydiyyata alınmış və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olub "Təhsil Haqqında" AR qanununa uyğun olaraq ayrı-ayrı tibb sahələri üçün müxtəlif ixtisaslar üzrə orta ixtisaslı mütəxəssis hazırlığını həyata keçirən təhsil müəssisəsidir.

**1.2** 1 nömrəli Bakı Tibb Kollecinin kollecdaxili nizam-intizam qaydaları (bundan sonra ″Qaydalar"), 1 nömrəli Bakı Tibb Kollecində təhsilalanların, təhsilverənlərin və digər əməkdaşların (bundan sonra "Tədris prosesi iştirakçıları"), hüquq və vəzifələrini, etik-davranış normalarını və prinsiplərini, məsuliyyətini və məsuliyyətə cəlb olunma qaydalarını tənzimləyir.

**1.3.** Bu Qaydalar Azərbaycan Respublikasının "Konstitusiya"sına, "Əmək Məcəlləsi"nə, "Təhsil haqqında Qanun"una, "Təhsil prosesi iştirakçılarının etik standartları modeli"nə, digər qanunvericilik aktlarına, Kollecin "Nizamnamə"si və "Kollektiv Müqavilə"sinə uyğun hazırlanmışdır.

**1.4.** Bu Qaydaların tətbiqində əsas məqsəd Kollecin Tədris prosesi iştirakçıları arasında sağlam işgüzar mühitin bərqərar olmasına, təhsilin səmərəliliyinin və şəffaflığının artırılmasına, kollecdə baş verə biləcək neqativ halların qarşısının alınmasına, mənəvi keyfiyyətlərin daha da yüksəldilməsinə, etik davranış standartlarına riayət edilməsinə nail olmaqdan ibarətdir.

**1.5.** Bu Qaydalar Kollecə daxil olduğu andan etibarən bütün Tədris prosesi iştirakçılarına vətəndaşlığından asılı olmayaraq şamil edilir.

**1.6.** Bu Qaydalar, eləcə də ona əlavələr və dəyişikliklər, Kollecin Pedaqoji Şurasının bu barədə qərarı təsdiq edildiyi gündən qüvvəyə minir.

**1.7.** Bu Qaydalara əməl olunmasına nəzarətin təşkili Kollecin rəhbərliyi və Həmkarlar İttifaqı Komitəsi tərəfindən müəyyən edilir.

**1.8.** Bu Qaydaların tətbiqi zamanı aşağıdakı prinsiplər əsas götürülür:

- **Qanunun aliliyi:** bu Qaydalar yalnız Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş normativ hüquqi aktlara əsaslanaraq tətbiq edilir. Qanunvericiliyə əsaslanmayan hərəkətlər və hərəkətsizlik yolverilməzdir. Bütün Tədris prosesi iştirakçıları qanuna tabe olmalıdırlar. Heç kim qanundan yüksəkdə dura bilməz. Hamı qanunun aliliyinə hörmət etməlidir.
- **Bərabərlik prinsipi:** intizam qaydalarını pozmuş şəxslər irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, maddi vəziyyətindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən və s. asılı olmayaraq intizam məsuliyyətinə cəlb olunurlar.
- **Ədalət prinsipi:** intizam qaydalarını pozan şəxsə tətbiq edilən intizam tənbehi ədalətli olmalıdır, yəni pozuntunun xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə, onun törədilməsi hallarına uyğun olmalıdır.
- **Mədəni davranış:** bütün tədris prosesi iştirakçıları qarşılıqlı davranışda nəzakətli, diqqətli və təmkinli olmalıdır. Hər kəs iradları, tənqidi fikirləri qəbul etməyi və düzgün qiymətləndirərək onlardan nəticə çıxarmağı bacarmalıdır, eyni zamanda səmimi, çalışqan, təşəbbüskar intizamlı, səliqəli olmalı, təhsil ocağına uyğun xarici görkəminə və geyim tərzinə riayət etməlidir.
- **Humanizm prinsipi:** intizam qaydalarını pozmuş Tədris prosesi iştirakçısına tətbiq edilən intizam tənbehi insan ləyaqətini alçaltmaq məqsədi daşıya bilməz.
- **Qərəzsizlik:** bütün tədris prosesinin iştirakçıları qarşılıqlı qərəzsiz olmalı, irqinə, etnik mənsubiyyətinə, dilinə, cinsinə, sosial mənşəyinə, dinə münasibətinə, əqidəsinə və ictimai mənsubiyyətinə görə hər kəsə qarşı tolerant olmalıdır.

## 2. KOLLECİN ƏMƏKDAŞLARININ HÜQUQ VƏ VƏZİFƏLƏRİ

**2.1. Kollecin əməkdaşları (təhsilverənlər, inzibati idarəetmə və təsərrüfat heyəti), Azərbaycan Respublikasının qüvvədə olan müvafiq qanunlarına, Kollecin "Nizamnamə"sinə və işə daxil olarkən Kolleclə bağlamış olduqları "Əmək Müqviləsi"nə uyğun olaraq aşağıdakı hüquqlara malikdirlər:**

- qüvvədə olan qanunvericiliklə müəyyən edilmiş iş günündən və iş həftəsindən, habelə haqqı ödənilən məzuniyyətlərdən istifadə etmək;
- sağlam və təhlükəsiz əmək şəraitində fəaliyyət göstərmək, vəzifə üzrə müəyyən edilmiş əmək haqqı almaq, habelə Azərbaycan Respublikasının "Əmək Məcəlləsi"nin 9-cu maddəsində müəyyən olunmuş digər əsas hüquqlardan istifadə etmək;
- Müəyyən edilmiş hallarda və qaydada mükafatlandırılmaq və təltif olunmaq;
- Öz şərəf və ləyaqətinə hörmətlə yanaşılmasını tələb etmək;
- Kollecin kitabxanasına üzv olmaqla, onun kitab fondundan və digər nəşr məhsullarından yararlanmaq;
- Qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək;

**2.2.** Kolleclə əməkdaş arasında yaranan əmək münasibətlərində vətəndaşlığına, cinsinə, irqinə, dininə, milliyyətinə, dilinə, ictimai-sosial mənşəyinə, yaşına, ailə vəziyyətinə, əqidəsinə, siyasi baxışlarına, qulluq mövqeyinə görə işçilər arasında hər hansı ayrı-seçkiliyə yol verilməsi, həmin amillər zəminində imtiyazların və güzəştlərin müəyyən edilməsi, habelə hüquqların məhdudlaşdırılması qəti qadağandır.

### 2.3. Kollecin əməkdaşlarının vəzifələri aşağıdakılardır:

- kollektiv münasibətlərdə əməkdaşlıq və qarşılıqlı hörmət prinsipinə əsaslanmaq, yalnız şəxsi nüfuzunu deyil, həm də kollecin və həmkarlarının nüfuzunu qorumaq və öz fəaliyyəti ilə kollecin nüfuzunun artmasına çalışmaq;
- onunla bağlanmış Əmək Müqviləsinin müəyyən etdiyi xidməti vəzifənin (əmək funksiyasının) səlahiyyətləri daxilində Kollecin rəhbərliyinin yazılı əmrlərini, sərəncamlarını və şifahi tapşırıqlarını dəqiq və vicdanla yerinə yetirmək;
- İcra və əmək intizamına riayət etmək, işə vaxtında gəlmək, iş vaxtında kənar işlərlə məşğul olmamaq, vaxtından əvvəl iş yerini tərk etməmək və üzrsüz səbəbdən işdən yayınmamaq;
- Hər hansı bir səbəbdən işə gəlmədikdə, rəhbərliyi xəbərdar etmək və səbəbləri haqda məlumat vermək, xəstələnmiş olduğu halda müvafiq səhiyyə müəssisəsinin müəyyən olunmuş formada sənədini təqdim etmək;
- qarşılıqlı münasibətdə olduğu şəxsə fiziki və mənəvi zor işlətməmək, şərəf və ləyaqəti alçaldan hərəkətlərə (və ya hərəkətsizliyə) yol verməmək, xeyirxah və ədalətli olmaq, davranışda haqsızlığa yol verdikdə səhvini etiraf etməyi bacarmaq və bundan nəticə çıxarmağa çalışmaq;
- Tədris prosesi iştirakçılarının şərəf və ləyaqətinə hörmətlə yanaşmaq, əsassız mühakimələrə yol verməmək, münaqişə yarandıqda isə onun ədalətli həllinə çalışmaq;
- həmkarlarının fəaliyyətini düzgün qiymətləndirmək, peşəkar baxış və fikirlərinə hörmətlə yanaşmaq, tənqidləri təhqirə çevirməmək, dəqiq və xoşxasiyyətli olmaq, obyektivlik və qərəzsizlik nümayiş etdirmək;
- öz həmkarları barədə bilərəkdən və ya bilməyərəkdən yalan və təhrif olunmuş məlumatlar yaymamaq;
- Kollecin əməlakını səliqəli və səmərəli istifadə etmək, qorumaq və buna görə maddi məsuliyyət daşıdığını dərk etdərək əmlaka zərər verməmək;
- Kollecə məxsus əmlakdan (auditoriya, tədris resursları, telefon, kompyuter, mebel və s.) şəxsi maraqları üçün istifadə etməmək;
- xidməti iş otaqlarında, auditoriyalarda ona təhkim edilmiş əmlak və texniki avadanlıqları, habelə istifadə üçün verilmiş ləvazimatları təmiz və saz vəziyyətdə saxlamaq;
- iş otaqlarında maddi dəyərlilərin və sənədlərin, müəyyən olunmuş saxlama qaydalarına riayət etmək;
- Kollecin kitab fonduna qayğı ilə yanaşmaq, onun itirilməsinə və yararsız hala salınmasına yol verməmək, buna görə maddi məsuliyyət daşımaq (Azərbaycan Respublikasının "Kitabxana işi haqqında" qanununun 19-cu maddəsi);
- İş yoldaşlarının hüquqlarına hörmətlə yanaşmaq, qanuni mənafelərini pozmamaq;
- vəzifə səlahiyyətləri çərçivəsində Kollecin normativ-hüquqi sənədlərini bilmək və öz işində tətbiq etmək, yerinə yetirdiyi vəzifə üzrə əmək funksiyasının keyfiyyətini daim yaxşılaşdırmaq;
- Həm kollecdə, həm də ictimai yerlərdə kolleci təmsil edərkən nizam-intizamlı və səliqəli olmaq;
- İşə gələrkən geyim səliqəsini və təhsil ocağına uyğun xarici görünüş tərzini gözləməklə yanaşı Kollecdə xüsusi geyim formaları tələb olunan işlərdə "Nizamnamə" və "Əməyin Mühafizəsi üzrə təlimat"ların tələblərinə riayət etmək;
- Tutduğu vəzifəyə görə dövlət, cəmiyyət, kollec, ailə və özü qarşısında məsuliyyətli olmaq, etika və əxlaq normalarına riayət etmək;
- Ətrafdakılarla münasibətdə təmkinli davranmaqla hər bir vəziyyətdə özünü ələ almağı bacarmaq, ictimai münasibətlərdə öz şəxsiyyətini qorumaq, vətəndaşlıq borcunu dərk etməklə mənfi təsirlər altına düşməmək;

- Hər zaman nitqinə fikir vermək, nitqində kobud və təhqiredici sözlər işlətməmək;
- Qarşılıqlı münasibətdə olduğu hər bir şəxsə, xüsusilə sağlamlıq məhdudiyyətli, xüsusi qayğıya ehtiyacı olanlara, Şəhid və Qazi ailələrinin üzvlərinə qarşı həssaslıq və diqqətlə yanaşmaq;
- Öz məqsədi naminə neqativ hallara (korrupsiya, rüşvət) qəti yol verməmək və göz yummamaq;
- Kollecin binasında və ərazisində təmizlik qaydalarına riayət etmək;
- Əməyin mühafizəsi və təhlükəsizlik texnikası, yanğından mühafizə qaydalarına və Kollecin daxili normativ sənədlərinə şərtsiz riayət etmək və qadağan olunmuş müvafiq ərazilərə daxil olmamaq;
- Yandırıcı, partlayıcı, kəsici, deşici və digər bu növ əşyalarla Kollecin ərazisinə və binasına daxil olmamaq və ümumiyyətlə, belə hallardan kənar durmaq;
- Kollecdə spirtli içkilərdən istifadə etməmək və kollecə onlardan istifadə edərək gəlməmək, kollecin binasında və sanitar qovşaqlarında tütün məmulatlarından istifadə etməmək;
- narkotik maddələrdən istifadə etməmək, ümumiyyətlə öz səhhətinə və kamilliyinə zərər vuran bu qəbildən olan vərdişlərdən çəkinmək;
- mühafizə işçiləri tərəfindən təhlükəsizliyin təmin olunması məqsədilə əl çantalarının, bağlamaların və geyimin yoxlanılması tələbinə maneçilik törətməmək;
- Əmək qanunvericiliyinin digər tələblərinə əməl etmək.

## 3. TƏHSİLVERƏNLƏRİN ƏSAS HÜQUQ VƏ VƏZİFƏLƏRİ

**3.1. Təhsilverənlər, yuxarida qeyd olunanlardan əlavə, Azərbaycan Respublikasının qüvvədə olan müvafiq qanunları və Kollecin "Nizamnamə"sinə uyğun olaraq aşağıdakı hüquqlara malikdirlər:**

- Pedaqoji Şuranın, fənn birləşmə komissiyalarının, işində və metodik işlərin təşkilində iştirak etmək;
- təlim-tərbiyə prosesinin təkmilləşdirilməsinə yönəldilən təkliflər irəli sümək, müntəzəm surətdə özünün peşəkarlığının yüksəlməsini təmin etmək;
- tədrisin formasını, metodlarını və vasitələrini sərbəst seçmək;
- kollecdə vəzifə tutmaq və müvafiq hallarda seçkili vəzifələrə seçmək və seçilmək;
- dövlət təhsil standartlarına uyğun bilik, bacarıq və vərdişlərə yiyələnmək;
- təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində və orta ixtisaslı tibb kadrlarının hazırlanmasında iştirak etmək.

**3.2. Kollecdə Təhsilverənlərin vəzifələri aşağıdakılardır:**

- şəxsi nümunəsi ilə Təhsilalanlarda Azərbaycan Respublikasının müstəqilliyinə, Konstitusiyasına və qanunlarına, Dövlət rəmzlərinə, Azərbaycan xalqının tarixinə, mədəniyyətinə, dilinə, adət və ənənələrinə, milli və ümumbəşəri dəyərlərə, cəmiyyətə, ətraf mühitə hörmət və qayğı hissləri aşılamaq;
- Təhsilalanlarla münasibətdə qarşılıqlı hörmətə əsaslanan ünsiyyət tərzi seçmək;
- Təhsilalanlarda müsbət keyfiyyətlərin formalaşmasına və inkişafına təkan verəcək müasir təlim texnologiyalarından və strategiyalarından istifadə etmək;
- Təhsilalanların fəaliyyətinin və bacarıqlarının qiymətləndirilməsində obyektiv və qərəzsiz olmaq, təhsilalanlara verilən qiymətin qərəzli şəkildə azaldılmasına və ya əsassız olaraq artırılmasına yol verməmək;
- pedaqoji normalara riayət etmək, müəllim nüfuzunu yüksək tutmaq, ziyalılıq nümunəsi göstərmək;
- Təhsilalanların və işçilərin, əməkdaşların şərəf və ləyaqətinə hörmətlə yanaşmaq, əsassız mühakimələrə yol verməmək, obyektivlik və qərəzsizlik nümayiş etdirmək;
- Peşə fəaliyyətini yerinə yetirmək müqabilində təhsilalanlardan hər hansı maddi və qeyri-maddi nemətlər tələb etməmək;
- gəncləri fiziki və psixi zorakılığın bütün formalarından qorumaq və zərərli vərdişlərdən çəkindirmək;
- tədris etdiyi fənni təhsil standartı və proqramının tələblərinə uyğun təşkil etmək;
- tədris edilən fənnin spesifik xüsusiyyətləri nəzərə alınmaqla tələbələrlə təlim məşğələləri aparmaq, tədris zamanı müxtəlif formalardan, üsullardan, metodlardan istifadə etmək;
- tədris etdiyi fənn üzrə tədris materiallarını planlaşdırmaq, tədris proqramlarının yerinə yetirilməsini, Təhsilalanlar tərəfindən təhsil proqramları ilə müəyyən olunmuş səviyyədə fənnin mənimsənilməsini təmin etmək;
- sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və ixtisasının daim artırılmasını təmin etmək, Təhsilalanları ictimai həyata və gələcəyin tibb işçiləri kimi səmərəli əmək fəaliyyətinə hazırlamaq;
- informasiya, kommunikasiya texnologiyalarından istifadə edərək fənn üzrə Təhsilalanların biliyinin qiymətləndirilməsini həyata keçirmək;
- tədris etdiyi fənnə dair təhsilalanların müstəqil işlərini təşkil etmək;

- Təhsilalanların valideynləri ilə hörmət və nəzakətlə davranmaq, eyni zamanda onları savadlı tibbi kadrların yetişdirilməsinə maneə ola biləcək qanuna zidd neqativ hərəkətlərə sövq etməmək;
- Təhsilalanların tədris intizamına riayət edilməsini, eyni zamanda tədris və təcrübi məşğələlərə davamiyyətini təmin etmək;
- fəaliyyətində və habelə, tədris avadanlıqlarından istifadə zamanı əməyin mühafizəsi və təhlükəsizlik texnikası tələblərinin yerinə yetirilməsinə nəzarət etmək;
- tədris prosesi zamanı kollecin "Nizamnamə"sinə uyğun ağ tibbi xalatda olmaq;
- Kollecin "Nizamnamə"sinə uyğun olaraq, daxili nizam-intizam Qaydalarının tələblərinə riayət etmək.

## 4. TƏHSİLALANLARIN ƏSAS HÜQUQ VƏ VƏZİFƏLƏRİ

**4.1. Təhsilalanlar, Azərbaycan Respublikasının qüvvədə olan müvafiq qanunlarına, Kollecin "Nizamnamə"sinə və Kolleclə bağladıqları müqaviləyə uyğun olaraq aşağıdakı hüquqlara malikdirlər:**

- dövlət təhsil standartlarına uyğun fasiləsiz təhsil almaq və tibb elminin müasir səviyyəsinə uyğun bilik və bacarıq qazanmaq;
- Kollecin tədris planlarına uyğun olaraq tədris fənlərini, semestrlər üzrə kreditlərin miqdarını, təhsilverənləri və tyutorları sərbəst seçmək;
- Azərbaycan Respublikasının Təhsil Nazirliyinin müəyyən etdiyi qaydada biliyinin yenidən qiymətləndirilməsini tələb etmək;
- müəyyən edilmiş qaydada kollecdə təhsilini müvəqqəti dayandırmaq;
- Tədrisin keyfiyyətini yüksəltmək üçün səmərələşdirici təkliflər vermək;
- Kollecin sosial-ictimai və mədəni həyatında iştirak etmək;
- praktik konfransların, seminarların, yığıncaqların və görüşlərin, habelə təhsil həyatı ilə bağlı digər tədbirlərin keçirilməsində iştirak etmək;
- kollecin fəaliyyəti ilə bağlı mühüm məsələlərin müzakirə və həllində iştirak etmək;
- kollecin kitabxanasından, İKT vasitələrindən, tədris, elm və digər bölmələrin xidmətlərindən ödənişsiz istifadə etmək;
- Kollecin aidiyyəti struktur bölmələrindən təhsil ilə əlaqədar özünə aid arayışlar, əmrlərdən çıxarışlar, transkriptlər və digər sənədləri almaq;
- özünün şərəf və ləyaqətinə hörmətlə yanaşılmanı tələb etmək;
- vicdan, informasiya azadlığına malik olmaq, öz fikir və mülahizələrini sərbəst ifadə etmək;
- qanunvericililiklə müəyyən edilmiş qaydada rəhbərliyin əmr və sərəncamlarından şikayət etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər hüquqlardan istifadə etmək.

**4.2. Kollecdə təhsilalanların vəzifələri aşağıdakılardır:**

- təhsil aldığı müddətdə tədrisə dair Kollecin "Nizamnamə"sindən, bu Qaydalardan və rəhbərliyin əmrlərindən irəli gələn tələblərə əməl etmək;
- dövlət, cəmiyyət, kollec, ailə və özü qarşısında məsuliyyətini dərk etmək, dərslərdə və təcrübə məşğələlərində iştirak etmək, ev tapşırıqlarını yerinə yetirmək və tibbi biliklərə mükəmməl yiyələnmək;
- Kollecə gələrkən və Kollecin daxilində geyim səliqəsinə və təhsil ocağına uyğun xarici görünüş tərzinə riayət etmək, tədris prosesi zamanı kollecin "Nizamnamə"sinə uyğun ağ tibbi xalat və papaqda olmaq;
- biliklərinin daim artırılmasına səy göstərmək, praktiki tibbi vərdişlərə və seçdiyi tibbi ixtisas üzrə müasir tədqiqat metodlarına yiyələnmək;
- təsdiq edilmiş cədvəl əsasında dərslərə vaxtında gəlmək, dərslərdən vaxtından tez getməmək və üzrsüz səbəbdən dərslərdən yayınmamaq;
- dərs vaxtında kənar işlərlə məşğul olmamaq, dərs prosesinin normal gedişinə mane olan hərəkətlər etməmək;
- tədris planı ilə nəzərdə tutulan tədris məşğələlərinin bütün növlərində iştirak etmək və ixtisas üzrə tədris planının tələblərini yerinə yetirmək;
- üzrlü səbəblərə görə dərslərə gəlmədikdə, növbəti gündən gec olmayaraq rəhbərliyi xəbərdar etmək və dərslərin buraxılması səbəbləri haqda məlumat vermək. Xəstələnmiş olduğu halda müvafiq səhiyyə müəssisəsinin müəyyən olunmuş formada arayışını təqdim etmək;
- Kollecin cavabdeh şəxslərinin, daxili mühafizə əməkdaşlarının tələbi ilə şəxsiyyətini təsdiq edən sənədi, yaxud tələbə biletini dərhal təqdim etmək, xüsusi hallarda isə təhlükəsizliyin təmin olunması məqsədilə əl çantalarının, bağlamaların və geyimin yoxlanılması tələbinə şərtsiz riayət etmək;
- Kollecin nüfuzuna xələl gətirə bilən, Kollecin mənəvi dəyərlərinə zidd olan hərəkətlərə yol verməmək, səhvlərə göz yummamaq, belə əməlləri törədənlər və qarşılaşdığı haqsızlıqlar barədə dərhal rəhbərliyi məlumatlandırmaq;

- ətrafdakılarla münasibətdə təmkinli davranmaqla hər bir vəziyyətdə özünü ələ almağı bacarmaq, obyektivlik və qərəzsizlik nümayiş etdirmək;
- hər zaman nitqinə fikir vermək, nitqində kobud və təhqiredici sözlər işlətməmək;
- tələbə yoldaşları, müəllimlər və Kollecin digər əməkdaşları ilə ünsiyyətdə diqqətli olmaq, o cümlədən sağlamlıq məhdudiyyətli, qayğıya ehtiyacı olan tələbə yoldaşları, Şəhid və Qazilərin ailə üzvlərinə xüsusi hörmət və həssaslıqla yanaşmaq;
- qarşılıqlı münasibətlərdə fiziki və mənəvi zor işlətməmək, şərəf və ləyaqəti alçaldan hərəkətlərə (və ya hərəkətsizliyə) yol verməmək, xeyirxah və ədalətli olmaq, davranışda haqsızlığa yol verdikdə səhvini səmimi etiraf etməyi bacarmaq və onun nəticələrini aradan qaldırmağa çalışmaq;
- ətrafdakıların fikirlərinə hörmətlə yanaşmaq, əsassız münaqişə və mübahisələrə yol verməmək, münaqişə yarandıqda isə onun konstruktiv həllinə çalışmaq, ətrafındakıların fəaliyyətini düzgün qiymətləndirmək, fikir və baxışlarına yönəlmiş tənqidləri təhqirə çevirməmək, dəqiq, düzgün və xoşxasiyyətli olmaq;
- Kollecin ictimai, mədəni, sosial və s. xarakterli tədbirlərində iştirak etmək, bu tədbirlərə gecikmələrə və tədbir zamanı davaranış qaydalarının pozulması hallarına yol verməmək;
- Kollecin kitab fonduna qayğı ilə yanaşmaq, onun itirilməsinə və yararsız hala salınmasına yol verməmək, buna görə maddi məsuliyyət daşımaq (Azərbaycan Respublikasının "Kitabxana işi haqqında" qanununun 19-cu maddəsi);
- Kolleci bitirdikdə və ya təhsilini müəyyən səbəblərdən davam etdirmədikdə kitabxanaya məxsus dərslik və digər nəşr materiallarını geri qaytararaq dövriyyə vərəqəsində bu barədə qeydiyyat etdirmək;
- həm kollecdə, həm də kolleci təmsil etdiyi ictimai yerlərdə nizam-intizamlı və səliqəli olmaq;
- Kollecin binasında və ərazisində təmizlik qaydalarına riayət etmək;
- neqativ hallar (rüşvət) insanı ləyaqətdən və hörmətdən, eyni zamanda Təhsilalanı da təhsildən məhrum edə bilən çirkin cinayət əməlləri kimi qəbul edildiyinə görə belə hərəkətlərə qəti yol verməmək;
- Əməyin mühafizəsi və təhlükəsizlik texnikası, yanğından mühafizə qaydalarına və Kollecin daxili normativ sənədlərinə şərtsiz riayət etmək və qadağan olunmuş müvafiq ərazilərə daxil olmamaq;
- Yandırıcı, partlayıcı, kəsici, deşici və digər bu növ əşyalarla Kollecin ərazisinə və binasına daxil olmamaq və ümumiyyətlə belə hallardan kənar durmaq;
- intizam, inzibati və cinayət məsuliyyəti doğuran hərəkətlərə yol verməmək (təcavüz, bilərəkdən və ya bilməyərəkdən yanğın törətmək, oğurluq, psixotrop maddələrin istifadəsi, yayılması və s), belə əməlləri törədənlər barədə dərhal müvafiq rəhbər işçiləri məlumatlandırmaq;
- Kollecdə spirtli içkilərdən istifadə etməmək və kollecə onlardan istifadə edərək gəlməmək, kollecin binasında və sanitar qovşaqlarında tütün məmulatlarından istifadə etməmək;
- narkotik maddələrdən istifadə etməmək, ümumiyyətlə öz səhhətinə və kamilliyinə zərər vuran bu qəbildən olan vərdişlərdən çəkinmək;
- Kollecin mülkiyyətində və istifadəsində olan əmlakı, tədrisdə istifadə olunan avadanlıqları, cihazları, texniki vasitələri, tədris vəsaitlərini qorumaq;
- cavabdeh şəxslərin icazəsi olmadan tədris auditoriyaları və digər otaqlardan əşya və müxtəlif avadanlıqları çıxarmamaq, öz hərəkətləri ilə Kollecə maddi zərər vurduqda AR qanunvericiliyinə uyğun olaraq dəymiş zərəri vaxtında ödəmək;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

## 5. TƏDRİS PROSESİ İŞTİRAKÇILARININ İNTİZAM POZUNTUSUNA GÖRƏ MƏSULİYYƏTƏ CƏLB EDİLMƏSİ QAYDALARI

**5.1.** Tədris prosesi iştirakçıları (əməkdaşlar və təhsilalanlar) tərəfindən daxili nizam-intizam qaydalarının pozulmasına görə qanunvericiliklə müəyyən olunmuş qaydada aşağıdakı intizam tənbehi tədbirlərindən biri tətbiq edilir:

- **töhmət;**
- **sonuncu xəbərdarlıqla şiddətli töhmət;**
- **Kollecdən xaric etmə** (qanunvericilikdə nəzərdə tutulan hallarda Kolleclə bağlanmış Müqaviləyə birtərəfli qaydada xitam verilməsi).
- Əməkdaşlara və Təhsilalanlara intizam tənbehi verərkən bu maddənin 1-ci hissəsində qeyd edilmiş intizam tənbehlərindən hər hansı biri tətbiq olunmadan yazılı və ya şifahi xəbərdarlıq edilə bilər. Xəbərdarlıq inzibati tənbeh sayilmır, lakin həmin şəxsə üzərinə düşən vəzifənin yerinə yetirilməsində və davranışında daha diqqətli olmasının vacibliyinin bildirilməsi başa düşülür.

**5.1.1. Xəbərdarlıq,** tədris prosesi iştirakçılarının hərəkət və davranışlarında daha diqqətli olması vacibliyinin yazılı və ya şifahi şəkildə bildirilməsidir və aşağıdakı hallarda verilir:

- başqalarına qarşı kobudluq və hörmətsizlik etdikdə;

- işə (dərsə) öz vaxtında gəlmədikdə (gecikmə halı), iş(dərs) vaxtında kənar işlərlə məşğul olduqda və iş(dərs) yerini vaxtından əvvəl tərk etdikdə;
- başqalarını narahat edəcək şəkildə səs-küy saldıqda (ucadan danışmaq, qışqırmaq, mahnı oxumaq, musiqiyə qulaq asmaq və s) ;
- iş və yardımçı otaqlarda, Kollec ərazisində sanitar-gigiyenik qaydalara, təmizliyə riayət etmədikdə;
- Kollecdə xüsusi geyim və xarici görünüş tərzinin tələblərinə riayət etmədikdə;
- Kollecə məxsus əmlakdan şəxsi maraqları üçün (kollecin fəaliyyət səlahiyyətlərinə aid olamayan) istifadə etdikdə;
- Kollecin səlahiyyətli şəxsləri tərəfindən verilən sorğuları və tapşırıqları əsaslı səbəb olmadan vaxtında yerinə yetirmədikdə;
- yuxarıda qeyd olunmamış digər oxşar intizam pozuntusuna yol verdikdə.

**5.1.2. Töhmət** dedikdə bu tədris prosesi iştirakçılarının davranışlarında, vəzifə və öhdəliklərinin yerinə yetirilməsində qüsurların olduğunun yazılı surətdə bildirilməsidir və aşağıdakı hallarda verilir:

- Kollecin səlahiyyətli şəxsləri tərəfindən tələb olunan məlumatları bildirmədikdə və ya onları məqsədli olaraq natamam və yanlış şəkildə məlumatlandırdıqda;
- üzərinə düşən vəzifə öhdəliklərinə riayət etmədikdə və ya səhlənkar yanaşdıqda;
- hərəkətləri və davranışı ilə iş prosesini, mühazirə, seminar, laboratoriya işləri, elmi konfrans, mədəni tədbir, iclas və s. gedişatına maneçilik törətdikdə;
- Əməyin Mühafizəsi üzrə təlimatların və təhlükəsizlik texnikasının tələblərinə riayət etmədikdə;
- Kollecdəki inventarların üzərində şəkil, emblem və s. yapışdırmaqla inventarları korladıqda (töhmət maddi məsuliyyət daşımaqla verilir);
- Kollec daxilində müvafiq qurumlarla razılaşdırılmadan elanlar və digər yazılı məlumatlar yaydıqda və asdıqda;
- Kollecin müvafiq strukturları tərəfindən asılmış elanları yararsız hala saldıqda (qoparmaq, dəyişdirmək, qaralamaq və s);
- Kollecin binasında, sanitar qovşaqlarda və qadağan olunmuş yerlərdə tütün məmulatlarından istifadə etdikdə;

**5.1.3. Sonuncu xəbərdarlıqla şiddətli töhmət,** Tədris prosesi iştirakçılarının yol verdiyi intizam pozuntusu qeyd olunmaqla yazılı şəkildə bildirilir və aşağıdakı hallarda verilir:

- kollec daxilində təkbaşına, başqaları ilə birlikdə və vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə dövlətçiliyə və qanunvericiliyə zidd olan siyasi, dini xarakterli təbliğatla məşğul olduqda, habelə başqalarını belə fəaliyyətə cəlb etdikdə;
- eyni intizam pozuntusu və ya xətası bir neçə dəfə təkrar edildikdə;
- etik davranış qaydalarını biləərkdən kobud şəkildə pozduqda;
- rast gəldiyi intizam qaydalarının pozulması hallarına etinasızlıq göstərdikdə və aparılan təhqiqata mane olduqda;
- kollecdən aldığı və ona aid olan sənədi istifadə üçün başqasına verdikdə və başqasına aid olan sənədi öz mənafeyi üçün istifadə etdikdə;
- Qarşılıqlı etimaddan sui-istifadə edərək neqativ hallara yol verdikdə;
- Kollec daxilində və xaricində insanlarin şərəf və ləyaqətini alçaldan şifahi və ya yazılı fəaliyyətlər göstərdikdə;
- dərs prosesində, imtahanlar və ya digər akademik tapşırıqlar zamanı müvafiq qaydaların tələblərini pozduqda (köçürmə, köçürməyə şərait yaratma, bu məqsədlə mobil telefondan və ona oxşar texniki vasitələrdən istifadə etmə,təhsilalanın fikrini, mülahizələrini sərbəst və müstəqil ifadə etməsinə maneəçilik törətdikdə);

- bilərəkdən öz əvəzinə başqasının imtahan verməsinə şərait yaratdıqda və ya başqasının əvəzinə imtahan verməyə cəhd etdikdə;
- imtahan suallarını hər hansı bir qeyri-qanuni yolla əldə etdikdə və ya bu kimi hallara şərait yaratdıqda;
- dil, irq, milli mənsubiyyət, din və məzhəb kimi əlamətlərə görə ayrı-seçkilik etməklə qütbləşmələr yaradan fəaliyyət göstərdikdə;
- Kollecdə divarları, əşyaları və kitabxana çap materiallarını korladıqda (üzərinə yazı yazmaq, işarələr qoymaq, sındırmaq, cırmaq, şəkil çəkmək və s – maddi məsuliyyət daşımaqla);
- Kollecdə cavabdeh şəxslərə bildirmədən müxtəlif tədbirlər təşkil etdikdə;
- səlahiyyəti olmadığı halda kolleci və ya onun hər hansı bir qurumunu təmsil etdikdə, o cümlədən, sosial şəbəkələrdə özünü kollecin səlahiyyətli nümayəndəsi kimi göstərərək bəyanatlar verdikdə, yığıncaq və ya tədbirlərdə iştirak etdikdə;
- Kollec binasında və ərazisində əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydalarını pozduqda və qadağan olunmuş müvafiq yerlərə daxil olduqda;

- qanunvericiliklə qadağan edilmiş təşkilatlara, sektalara üzv olduqda və ya onların lehinə fəaliyyət göstərdikdə;
- kollecin hər hansı bir əməkdaşına qarşı xüsusi kampaniya apardıqda bu məqsədlə tədris prosesi iştirakçıları arasında imza topladıqda, onları təşkilatlandırdıqda və ya buna cəhd etdikdə;
- qanunvericiliklə qadağan edilmiş digər inzibati hüquq pozuntularına yol verdikdə.

**5.1.4. Kollecdən xaric etmə**, Pedaqoji Şuranın qərarına əsasən direktorun əmri ilə rəsmiləşdirilir. Bu intizam tədbiri aşağıdakı hallarda tətbiq edilir:

- Kolleclə bağlanmış Müqavilənin şərtlərini pozduqda;
- Dövlətçiliyə və Kollecin nüfuzuna xələl gətirən tədbirlər keçirdikdə və təbliğat apardıqda;
- Tədris prosesi iştirakçılarına mənəvi zor göstərdikdə, sosial şəbəkələrdə və digər KİV vasitələrində açıq-aşkar onların şərəf və ləyaqətini alçaltdıqda, eləcə də bu qəbildən olan hərəkətlərlə onlara hədə-qorxu gələrək şantaj etdikdə;
- Kollecin daxilində və ərazisində inzibati və ya cinayət məsuliyyəti yaradan hüquq pozuntularına yol verdikdə, tədris prosesi iştirakçılarına qarşı fiziki zor işlətdikdə, onların öz vəzifələrini icra etməsinə mane olduqda, eyni zamanda başqalarını da belə hərəkətlərə təhrik etdikdə;
- Kollecin tikililərinə, qurğularına və digər avadanlıqlarına, habelə informasiya şəbəkəsi sisteminə ciddi zərər vurduqda (tələf etmək, yandırmaq, oğurluq etmək və s.);
- Kollecə aid olan hər hansı bir sənəddə imzanı saxtalaşdırdıqda, kollec sənədlərində dəyişikliklər etdikdə və başqalarını buna təhrik etdikdə;
- səlahiyyəti olmadığı halda kollecin informasiya bazasına müdaxilə edərək, özünün və ya başqasının lehinə qanunsuz əməliyyatlar apardıqda;
- qeyri-qanuni olaraq öz məqsədini həyata keçirmək naminə neqativ əməllərə yol verdikdə (rüşvət vermək və ya almaq);
- Kollecə narkotik, psixotrop və spirtli maddələr qəbul edərək qeyri-adekvat şəkildə gəldikdə, habelə bu tip maddələrdən Kollec daxilində istifadə etməsi halı aşkarlandıqda;
- İntizam pozuntusuna görə "sonuncu xəbərdarlıqla şiddətli töhmət"dən nəticə çıxarmayaraq təkrar belə hallara yol verdikdə;
- qanunvericiliklə qadağan edilmiş, eləcə də yolverilməz hesab edilən digər ciddi intizam pozuntusuna yol verdikdə.

**5.2. İntizam tənbehi tətbiq edilərkən aşağıdakılar nəzərə alınmalıdır:**

- törədilən hadisənin ağırlıq dərəcəsi;
- vurulan ziyanın dəyəri;
- hadisənin baş vermə yeri, faktı və halları;
- intizam tənbehini yüngülləşdirən və ağırlaşdıran hallar;
- hadisənin qəsdən və ya ehtiyatsızlıqdan törədilməsi;
- intizam pozuntusu törədən şəxsi xarakterizə edən amillər;
- hadisənin baş verməsinə təsir edən səbəb və şərait.

**5.3.** Xəstəlik, tətil, akademik məzuniyyət və ya hamiləlik və doğuşa görə məzuniyyət vaxtı kollecdən xaric edilməyə yol verilmir.

**5.4.** İntizam məsuliyyətinə cəlb olunmuş tədris prosesi iştirakçısı nizam-intizam qaydalarını təkrar pozduqda ona daha ciddi intizam tənbehi tətbiq edilir.

**5.5.** Tədris prosesi iştirakçılarına intizam tənbehinin tətbiq edilməsi muvafiq qurumun rəhbərinin yazılı təqdimatı ilə direktorun əmrinə əsasən həyata keçirilir. Tənbeh olunan 3 gün ərzində direktorun müvafiq əmri ilə tanış edilir.

**5.6.** Tətbiq edilən intizam tənbehi haqqında məlumat tənbeh olunanın şəxsi işinə qeyd edilir.

**5.7.** Tətbiq edilən intizam tənbehi haqqında rəsmi sənəd elanlar lövhəsində yerləşdirilir.

**5.8.** İntizam tənbehi müvafiq hadisənin baş verməsinin aşkar olunduğu gündən bir ay keçənədək tətbiq edilə bilər. Həmin gündən 6 ay keçdikdən sonra intizam tənbehi tətbiq edilə bilməz.

## 6. İNTİZAM TƏNBEHİNDƏN APELYASİYA ŞİKAYƏTİNİN VERİLMƏSİ QAYDALARI

**6.1.** İntizam tənbehi ilə bağlı rəsmi əmr haqqında məlumat aldıqdan 3 iş günü müddətində həmin şəxs apelyasiya şikayəti verə bilər.

**6.2.** Apelyasiya şikayəti birbaşa direktora ünvanlanır.

**6.3.** Apelyasiya şikayəti ilə bağlı direktor tərəfindən apelyasiya komissiyası yaradılır və 5 iş günü müddətində araşdırma aparılır.

**6.4.** İlkin araşdırmada iştirak edən şəxslər apelyasiya komissiyasının üzvü ola bilməzlər.

**6.5.** Apelyasiya komissiyası şikayəti araşdırır və intizam tənbehi ilə bağlı verilən qərarın qüvvədə saxlanması, ləğv edilməsi və ya ona dəyişikliklər edilməsi barədə direktora tövsiyələrini verir.
**6.6.** Apelyasiya komissiyasının tövsiyələrinə əsasən direktor son qərar verir və bu qərar qətidir. Bu qərardan müəyyən olunmuş qaydada məhkəməyə müraciət edə bilər.
**6.7.** İntizam tənbehi Kollecdəki fəaliyyətində və davranışında yaxşı göstəricilərə görə həmin tənbeh verilən gündən 6 ay keçdikdən sonra müvafiq qurumun rəhbərinin təqdimatı əsasında direktorun əmri ilə vaxtından əvvəl götürülə bilər.

## 7. MÜVƏFFƏQİYYƏT VƏ NAİLİYYƏTLƏRƏ GÖRƏ HƏVƏSLƏNDİRMƏ TƏDBİRLƏRİ

**7.1.** Kollecdə Tədris prosesi iştirakçılarına müvəffəqiyyət və nailiyyətlərə görə aşağıdakı həvəsləndirmə tədbirləri tətbiq edilir:
- təşəkkür;
- tərifnamə;
- qiymətli hədiyyə;
- pul mükafatı.

**7.2.** Həvəsləndirmələr Həmkarlar İttifaqı Komitəsinin rəyi nəzərə alınaraq direktorun əmri ilə rəsmiləşdirilir.
**7.3.** Həvəsləndirmələr haqqında əmrlərdən çıxarış təltif olunanın şəxsi işində saxlanılır.

## 8. YEKUN MÜDDƏALAR

**8.1.** Tədris prosesi iştirakçıları ilə Kollec arasında müqavilələr bağlanılan zaman həmin müqavilələrdə bu Qaydalara istinad edilən müvafiq müddəalar nəzərdə tutulmalıdır.
**8.2.** Bu qaydalarda nəzərdə tutulmayan intizam xətasına yol vermiş tədris prosesi iştirakçısına qarşı yuxarıda sadalanan intizam xətalarından ən oxşarı (törədilmiş hərəkətin xarakteri, ağırlıq dərəcəsi, şəxsiyyəti nəzərə alınmaqla) üçün müəyyən edilmiş intizam tənbehi tətbiq edilməlidir.
**8.3.** Tədris prosesi iştirakçıları eyni zamanda Kolleclə yeni müqavilə bağlayan şəxslər bu Qaydalarla tanış edilməlidirlər.
**8.**4. Bu Qaydalar Kollecdə hər kəsin diqqətini cəlb edən uyğun formatda tərtib edilib asılmalıdır.